

# ŞƏRQ qapısı

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

*Qəzet 1921-ci ildən çıxır*

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 129 (24.266)

*21 iyul 2023-cü il, cümə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 30 qəpik


## Prezident İlham Əliyev Cəlilabad Dövlət Peşə Təhsil Mərkəzinin açılışında iştirak edib





Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 20-də Cəlilabad rayonunda olub.

Dövlətimizin başçısı Cəlilabad Dövlət Peşə Təhsil Mərkəzinin açılışında iştirak edib.

Elm və təhsil naziri Emin Əmrullayev Prezident İlham Əliyevə mərkəzdə yaradılan şərait barədə məlumat verdi.

Qeyd edək ki, ölkəmizdə əmək bazarının tələblərinə uyğun kadr hazırlığında peşə təhsilinin rolu artır. Bu sahəyə göstərilən diqqət həm də müasir infrastrukturun formalaşdırılması ilə müşayiət olunur. Cəlilabad Dövlət Peşə Təhsil Mərkəzi də regional inkişaf proqramından irəli gələrək bölgədə gənclərin peşə bacarıqlarına yiyələnməsinə yeni imkanlar yaradacaq.

Məlumat verildi ki, hazırda Azərbaycanda 98 peşə təhsili müəssisəsi var. Peşə təhsil mərkəzlərinin sayı isə 14-dür. Ölkəmizdə 120 ixtisas üzrə 23 min 600 tələbə peşə təhsili alır. Son üç ildə peşə qəbulu üzrə göstəricilər 30 faiz artaraq, keçən il tələbələrin sayı 19 mini ötüb. Bundan başqa, 2022-2023-cü tədris ilində 5 regionda fəaliyyət göstərən 8 peşə təhsili müəssisəsində yüksək texniki peşə təhsil səviyyəsi üzrə də tələbə qəbulu aparılıb. Hazırda respublikada 1466 tələbə yüksək texniki peşə təhsili alır. Bu təhsil səviyyəsi üzrə tələbələrin sayının 2026-cı ilə qədər 9200-ə çatdırılması planlaşdırılır.

Bildirildi ki, hazırda Lənkəran Peşə Liseyi, Texnika və Texnologiyalar üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzi üçün binalar tikilir. Mingəçevir Peşə Təhsil Mərkəzinin binasının tikintisi isə başlamaq üzrədir. Eləcə də Füzuli Peşə Liseyi, Sənaye və Yüksək Texnologiyalar üzrə Sumqayıt Dövlət Peşə Təhsil Mərkəzi, Tovuz, Qax və Quba Peşə liseylərinin binalarının layihələndirilməsi aparılır. Qarabağda Kəlbəcər və Laçın peşə məktəblərinin tikintisi planlaşdırılır. Böyük Qayıdış Proqramı çərçivəsində, ümumilikdə, 8 peşə təhsil müəssisəsi tikilib istifadəyə veriləcək.

Dövlətimizin başçısı Cəlilabad Dövlət Peşə Təhsil Mərkəzində yaradılan şəraitlə tanış oldu.

Ən müasir infrastruktur, maddi-texniki baza ilə təchiz olunan mərkəzin ərazisində 25 sinif otağı, 3 laboratoriya, 13 emalatxana, informatika kabineti, STEAM Mərkəzi, praktiki məşğələ otağı, kitabxana, 252 yerlik akt zalı, 128 yerlik yeməkxana, idman zalları və meydançaları, avtotəmir binası, maldarlıq ferması və digər köməkçi binalar yerləşir.

Peşə Təhsil Mərkəzində qənnadıçı, şirniyyatçı, dərzi, kompüterlərin təmiri və xidməti üzrə texnik, mühasibat uçotu, qrafik dizayner, veb-dizayn və proqram təminatı, çilingər-santexnik, geniş profilli traktorçu-maşinist, elektrik montyoru, bərbər-vizajist-manikürçü, avtomobillərin təmiri çilingəri, avtomobil sürücüsü, mebel ustası istiqamətləri üzrə mütəxəssis hazırlığı aparılacaq.

Eyni zamanda kənd təsərrüfatı mütəxəssislərinə artan tələbatı nəzərə alaraq bu sahə üzrə tədrisə xüsusi diqqət yetirilib. Müəssisədə kənd təsərrüfatı məhsullarının istehsalı üzrə fermer, bitkiçilik, heyvandarlıq və baytarlıq üzrə mütəxəssislər də hazırlanacaq.

Qeyd edək ki, son illərdə Azərbaycanda peşə təhsilinin inkişafı istiqamətində əhəmiyyətli addımlar atılıb. Prezident İlham Əliyevin 2016-cı il 20 aprel tarixli Fərmanına əsasən Elm və Təhsil Nazirliyi yanında Peşə Təhsili üzrə Dövlət Agentliyinin yaradılması, peşə təhsilinin yeni çağırışlara uyğunlaşdırılması, peşə təhsili müəssisələrinin rolunun və statusunun yüksəldilməsi bu sahəyə xüsusi diqqətin təzahürüdür.

Cəlilabad Dövlət Peşə Təhsil Mərkəzinin istifadəyə verilməsi bölgələrdə gənclərin yeni tələblərə uyğun bilik və bacarıqlara yiyələnməsinə, eləcə də məşğulluq məsələlərinin həllinə xidmət edəcək.

## Prezident İlham Əliyev Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunun 27 kilometrlik hissəsinin tikintisi ilə tanış olub





Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 20-də Füzuli rayonunda olub.

Dövlətimizin başçısı 1-ci texniki dərəcəli Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunun Füzuli Beynəlxalq Hava Limanına qədər olan 27 kilometrlik hissəsinin tikintisi ilə tanış olub.

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyətinin sədri Saleh Məmmədov dövlətimizin başçısına görülən işlər barədə məlumat verdi.

Bildirildi ki, işğaldan azad olunmuş ərazilərin yenidən qurulması və bərpası layihəsi çərçivəsində Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunun layihələndirilməsi və tikintisi sürətlə davam etdirilir. Mövcud yolun uzunluğu 101, yeni yolun uzunluğu isə 81,7 kilometrdir. Yolun Tuğ dairəsinədək olan 48 kilometrlik hissəsi altı, 33,7 kilometrlik hissəsi isə dörd hərəkət zolağından ibarət olacaq.

Yolun baxış keçirilən 27 kilometrlik hissəsində əsas infrastruktur işləri tam icra olunub. Ümumilikdə, Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunun tikintisinin 50 faizi tamamlanıb. Yolboyu müxtəlif diametrli 137 suötürücü boru, 30 yeraltı keçid, 8 körpü, 7 tunel və 9 viaduk inşa edilir. Körpülərin ümumi uzunluğu 984, viadukların uzunluğu isə 2090 metrdir.

Məlumat verildi ki, layihə üzrə tikintisi nəzərdə tutulmuş doqquz viadukun səkkizində hazırda inşaat işləri davam etdirilir. Viadukların üçünün tikintisi zamanı Azərbaycanda ilk dəfə olaraq aşırım qəliblərin üfüqi sürüşdürülməsi üsulu ilə betonlama işləri yerinə yetirilir. Bundan başqa, Zəfər yolunun Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yoluna birləşən hissəsində yol qovşağının tikintisi işləri də uğurla icra olunur.

## Prezident İlham Əliyev Xocalı rayonunun işğaldan azad edilmiş Çanaqçı və Sığnaq kəndlərində olub



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 20-də Xocalı rayonunun işğaldan azad edilmiş Çanaqçı və Sığnaq kəndlərində olub.

**AZƏRTAC**

*Journalistin qeydləri*

## Maarif və mədəniyyət asimanının parlayan ulduzları, bəşəri dəyərlərin ulu carçıları
## *Qurbanəli Şərifzadə və Əziz Şərif ilə məzarüstü söhbət...*

*Bu ünvanın yaşı, bəlkə də, min illərə dayanır, bilmirəm... Lakin hər dəfə ora ayaq basanda, bir gün əbədi həyata yola salınacağımız bu yerin görüşünə gedəndə sanki mənəvi aramlıq tapıram. Heç zaman sükutunu pozmayan sakinlərin söhbətini dinləyə-dinləyə gəzir, axtarır, hərdənbir tanıdığım, ya da heç tanımadığım, sıradan bir məzarın qarşısında dayanıb, hələ bu dünyadaykən etdiyi xoş əməlləri, yaxşı işləri düşünüb, ürəkdolusu “Allah rəhmət eləsin”, – deyirəm. Göz izlədikcə uzağı-yaxını, bir-birinin ardınca düzülmüş daşlar çox mətləblər danışır mənə, çox sözlər deyir. Bilmirəm, bəlkə də, yalnız mən bu hissə qapılıram, ancaq düşünürəm ki, bu məkanın ağuşunda uyuyan, həyatını elmə, maarifə həsr edən insanları ömründə bir dəfə belə olsun görən hər kəsin qəlbi də ən az mənim kimi riqqətə gələr, ürəyindən “kaş sağ olaydılar” fikri keçər. Daşlar üzərində həkk olunmuş adlara baxmaq da bəs edir bu ünvandan fikir toplamağa, düşüncə gücünə qapılıb maddi dünyadan bir anlığa qopmağa; İbrahim Mollayev, Hüseyn Həşimli, Hüseyn İbrahimov, Fərəməz Maqsudov, Səməd Mövləvi, Elman Həbib, Nurəddin Babayev, Zəhmət Şahverdiyev və neçə-neçə dəyərli ziyalılar uyuyur bu məkanda, əbədi həyatın saf, təmiz ağuşunda...*

Qəbiristanlığın bir guşəsində həyatlarını yalnız xalqımızın tərəqqisinə həsr etmiş, yaşadıqları dövrün çətinliklərinə, təzyiqlərinə, təqiblərinə baxmayaraq, yeganə çıxış yolunu insanların mənəvi şüurunu oyatmaqda bilən mollanəsrəddinçi ziyalılar, maarif və mədəniyyət asimanının parlayan ulduzları, bəşəri dəyərlərin ulu carçıları – Qurbanəli Şərifzadə və Əziz Şərif də uyuyur. Mətbuatımızın 148-ci ildönümü ərəfəsində cəsarət edib onlarla daxilən həmsöhbət olmaq qərarına gəldim... Gəlin dinləyin ömrünü Molla Nəsrəddin babanın həqiqətlərini yaymağa, cahil, elmsiz insanların üzünə maarif işığı çiləməyə sərf edən, bütün bu xidmətləri ilə yanaşı, böyük demokrat yazıçısı Cəlil Məmmədquluzadəni görüb ona arxa-dayaq olmuş bu iki dahi şəxsiyyətin, ata-oğulun söhbətlərini. Dinləyin ki, onlar haqqında illərdir, kitablardan, məqalələrdən öyrəndiyimiz hər şeyi elə onların dilindən eşidək...



– Salam olsun sizə, görkəmli el ağsaqqalları, ustad Mirzə Cəlilin qələm yoldaşları, sirdaşları... İzin verin sizə – hər ikinizə ustad deyə müraciət edim. Sizə həyatınızı, əsərlərinizi



öyrənən, sevən, əqidənizi öz əqidəsi, qayənizi öz qayəsi bilən hər kəsdən, alimlərdən, şairlərdən, jurnalistlərdən salam gətirmişəm...

***Qurbanəli Şərifzadə:*** – Salam olsun Vətənimizin, xalqımızın qeyrətli, azadlıqsevər insanlarına, gənclərinə...

***Əziz Şərif:*** – Bizdən də salam söyləyin azadlığı cana məlhəm, əqidəyə şəfa bilən bütün Naxçıvan ictimaiyyətinə, bizi tanıyan, sevən hər kəsə...

– Gəlmişəm sizə, sizin bitib-tükənməz, əvəzsiz xatirələrinizdən danışam. İstərdim ki, sizin şirin söhbətinizlə ötüb-keçən zamanlara nəzər salaq, xatırlayaq milli mətbuatımızın, xalqımızın, şahidi olduğunuz bir əsrdən artıq tariximizin inkişaf yolunu. Keçmişdə zülmət gecəni xatırladan Azərbaycanın bugünkü nurlu sabahını, işıqlı gələcəyini...

***Qurbanəli Şərifzadə:*** – Sizin söylədiyiniz bu sözlər mənə 30 illik dostum, sirdaşım Mirzə Cəlilin bir fikrini xatırlatdı, sanki həmin illərə qayıtdım. Mərhum rəfiqim o illərdə Vətənimizin zülmət sabahlarını, elmsiz, cahil insanların həyatını, müqəddəratını düşünərək deyirdi: “Gözümü ilk dəfə açanda dünyanı qaranlıq görmüşəm...” Düzdür, artıq həmin tarixdən çox zaman keçib, Vətənimiz xeyli inkişaf edib, insanlar geniş dünyagörüşünə sahib olub. Mənim də, Əzizin də doğulub boya-başa çatdığı Naxçıvan şəhəri o qədər dəyişilib ki, tanımaq mümkün deyil. Xatırlayıram Naxçıvanın əvvəlki vaxtlarını. Həmin illərdə şəhərin ən qələbəlik yeri “Came” məscidinin yaxınlığında yerləşən küçələr idi. Yadımdadır ki, əvvəllər orada şəhərdə yeganə olan bir bazar da yerləşirdi. Bazarın qaranlıq və sərin çarşılarında ucuz-baha parça, qab-qacaq, cürbəcür başqa mallar satan tacirlər onlar üçün ayrılmış yerlərdə əyləşib alver edirdilər. Şəhər çox səs-küylü olurdu. Möhrədən tikilmiş kipçərək evlər, küçələrdə şütüyən faytonlar və neçə-neçə bunun kimi mənzərələr şəhəri, o dövrün Naxçıvanını qaranlığa qərq etmişdi...

***Əziz Şərif:*** – Səhv etmirəmsə, həmin məscid və bazar indi də qalmalıdır. Mənim də yadımdadır ki, həmin küçələrdə, ələlxüsus da ki, məscidin yaxınlığında olan geniş meydanda şəhərin qoca sakinləri, işsiz, bekar insanlar cəm olurdu. Yaşı yetişmiş qocalardan biri ətrafdakılara, ora toplaşmış insanlara gördüyü, şahidi olduğu hadisələrdən nə isə nəql edir, ya da eşitdiyi rəvayətlərdən danışırdı. Ya da meydanın ortasında əlindəki əsasını tovlaya-tovlaya Rüstəm-zalın sərgüzəştlərini söyləyirdi (gülür). Ətrafa toplanmış nağılsevərlər də böyük maraqla onun nağılını dinləyir, pəhləvan Rüstəm-zalın cavan pəhləvan deyib öldürdüyü Söhrabın öz oğlu olduğunu biləndə yaşadığı məyusluğu öz aləmində canlandırırdı. İnsanların saflığı, məsumluğu da öz yerində...

– Bəli, əziz ustad, şəhərimizin tikililəri artsa da, müasirlik və dəbdəbəyə qovuşsa da tarixiliyini qoruyub saxlayıb. Bir dəyişən odur ki, o qaranlıq, zülmət şəhərdən əsər-əlamət qalmayıb artıq. Amma bu da bir həqiqətdir ki, elm işığından, maarif nurundan uzaq olan o qaranlıq Naxçıvan sizi, hər iki ustadımızı Cəlil Məmmədquluzadəyə qovuşdurdu. Əgər zaman və şərait belə olmasaydı, Uca Yaradanın yazdığı tale sizi birləşdirərdimi?

***Qurbanəli Şərifzadə:*** – Doğrudur, mən bununla hər zaman haqlı olaraq fəxr etmişəm. Hər zaman demişəm ki, rəfiqim Mirzə Cəlil həm mənim, həm də oğlum Əzizin qarşısına Allahın çıxardığı bir mükafat idi. Yaxşı ya-



dımdadır, 1905-ci ildə hökumətlə anlaşılmaz münasibət nəticəsində həbs cəzası almışdım. Həmin ilin 22 fevralında Mirzə Cəlil mənim tutulmağıma münasibətən bir məktub yazmışdı. Onunla qarşılaşmağımız, dostlaşmağımız, bəlkə də, dediyiniz kimi, zamanənin hikməti idi. Bu cür təsadüflərə elə dostum da inanırdı, hətta o bizi bir amal uğrunda birləşdirən “Molla Nəsrəddin” jurnalı barədə də hər zaman deyirdi ki, “Molla Nəsrəddin” jurnalını belə zəmanə özü yaratdı, təbiət özü yaratdı...

– Əziz ustad, icazə versəniz, siz həbs olunarkən Cəlil Məmmədquluzadənin yazdığı məktubu oxumaq istəyirəm: “Bəradərim Qurbanəli, qardaş, bu nə işdir, sənin başına gəldi? Əhvalatı bir qolay eşitmişəm, amma təfsilatı mənə məlum deyil. Əlbəttə, tez mənə bir kağız yaz. Əgər yaza bilməsən, yazdır göndər görək bu nə qəzavü-qədərdir, sənin başına gəldi. Əzizdən də heç nigaran qalma. Onu, yəqin bil ki, xudanəkərdə sən dünyada olmasan da, Əziz burada dərs oxuyub, axıra kimi elm təhsil edəcək. Hər halda indi Əzizin sənə heç bir ehtiyacı yoxdur və onun barəsində heç fikir eləmə...”

***Qurbanəli Şərifzadə:*** – Allah ona rəhmət eyləsin... sağlığında bütün ziyalılar ilə səmimi münasibət qurardı, amma mənə belə isti münasibət saxlayıb qardaş deyə müraciət etməsi, övladıma mənəvi atalıq etməsi yalnız Mirzə Cəlil ucalığına qismət olacaq şeydir.

– Dəyərli professorumuz Əziz Şərifin də bu barədə fikirləri maraqlı olacaq, düşünürəm ki...

***Əziz Şərif:*** – Mən ustadım Mirzə Cəlillə atamın vasitəsilə tanış olmuşam. Həmin illərdə balaca idim, ancaq xatırlayıram onunla səmimi görüşümüzü. 1905-ci ildə atamla birgə Tiflisə getmişdik. Həmin illər ərzində Mirzə Cəlil də Tiflisdə yaşayırdı. Burada atamın əziz dostu, məsləkdaşı Cəlil Məmmədquluzadə ilə tanış oldum və dahi yazıçının ailə mühitində, sözün əsl mənasında, mənəvi övlad kimi qəbul edildim. Hətta Cəlil Məmmədquluzadənin evində təşkil olunmuş pansionda dərs oxuyub maariflənir, dünyagörüş əldə edir, ədibin göstərdiyi bütün elmi biliklərə sahiblənməyə çalışırdım. Həmçinin gələcək mollanəsrəddinçi jurnalistlərin bir qismi ilə də məhz burada tanış oldum. Həyatdakı fəaliyyətimin bütün zamanlarında Mirzə Cəlillə keçən Tiflis həyatı xoş xatirələrlə yadda qalıb. Çünki sadə, kasıb bir ailənin övladı olan Əzizi Əziz Şərif kimi Azərbaycan mətbuatına tanıdan insanlardan biri idi Cəlil Məmmədquluzadə. Mənim mənəvi yüksəlişimdə, jurnalist kimi formalaşıb yetişməyimdə, ədəbi-ictimai mühitdə bilikli və məlumatlı olmağımda, təvazökarlıqdan bir qədər uzaq olsa da, geniş dünyagörüşünə malik işıqlı şəxsiyyət kimi yetişməyimdə onun əvəzsiz xidmətləri olmuşdur. Bayaq oxuduğunuz məktubun yazıldığı ildə olanları az-çox xatırlayıram. Hətta yadımdadır ki, həmin ildə Mirzə Cəlil metrik şəhadətnaməmi şeyxülislam idarəsindən də çıxarıb imtahan verməyim üçün hazır etmişdi. May ayında da imtahan verib, müvəffəqiyyət qazanmışdım.



– Səhv etmirəmsə, hətta sizin bir məqaləniz də, hələ uşaq ikən “Molla Nəsrəddin” jurnalında işıq üzü görmüşdü...

***Əziz Şərif:*** – Bəli, doğrudur. 1906-cı ildə, yəni “Molla Nəsrəddin” jurnalı təzə nəşrə başladığı ildə kiçikhəcmli bir məqalə yazmışdım. Həmin məqaləni də Mirzə Cəlil jurnalında dərc etdirmişdi. Həm də açıq imza ilə... Bu o dövrün ziyalıları üçün bir çətin məsələ idi. Çünki çar hökumətinin təqiblərinə yaxalanmamaq üçün milli ruhlu ədiblərimiz gizli imzalardan istifadə edirdilər. Lakin Cəlil Məmmədquluzadə tam əksinə olaraq mənim məqaləmi öz adım və soyadımla – Əziz Qurbanəli oğlu Şərifzadə imzası ilə vermişdi. Hətta jurnal yeni nəşrə başladığı dövrdə atam böyük həvəslə “Molla Nəsrəddin”ə abunə olur, yaxın dost tanışlarına da bu jurnalı mütaliə etməyi məsləhət görürdü. Yaxşı xatırlayıram, bizim evə də “Molla Nəsrəddin” jurnalından iki nüsxə gələrdi. Atam birini özü üçün, birini də həvəslənməyim üçün mənə alardı.

– Həmin məqaləniz nədən bəhs edirdi, xatırlayırsınız ?

***Əziz Şərif:*** – On bir yaşında uşaq nədən yaza bilərsə, ondan... (gülümsəyir) – Naxçıvan hamamlarından. Məqaləmdə Naxçıvan hamamlarının “şəfaverici xüsusiyyətlərindən” yazmışdım. Qeyd etmişdim ki, bu yerlərin hamamları insanın sağlamlığına qovuşmasında “əvəzsiz faydalara malikdir”. Hətta həmin illərdə bütün şəhər sakinlərinin istifadə etdiyi sarı, bulanıq, natəmiz suları da tərifləyib, təəssübkeşlik etmişdim (gülür). Yazmışdım ki, Naxçıvan hamamlarının suyundan istifadə edənlər, suyun rənginin sarı olmağına baxmasın, nə eyibi var, zəfəran da sarıdır, amma ətrinə bax. Allah şahiddir ki, Naxçıvan hamamlarının suyunun ətri zəfəran ətrindən güclüdür...

– Əziz ustadımız Qurbanəli bəy, ya da milli mətbuatımızın “Hacıleyləyi”, “Mozalan bəyi”, elə “Molla Nəsrəddin” jurnalından söhbət açılmışkən, istərdim sizin də bu məcmuədəki xidmətlərinizi eşidək. Düzdür, uzun illər Mirzə Cəlillə birgə bu ədəbi məcmuəyə verdiyiniz qiymət, yazdığınız felyetonlar, məqalələr hər birimizə məlumdur. Ancaq onları sizin dilinizdən eşitmək, jurnalistlik fəaliyyətinizin tarixini özünüzdən dinləmək daha maraqlı olar.

***Qurbanəli Şərifzadə:*** – Mənim Mirzə Cəlillə dostluğum “Molla Nəsrəddin” jurnalı nəşrə başladığı tarixdən çox-çox əvvəllərə dayanır. Jurnalistlik fəaliyyətimə isə XIX əsrin sonlarında, XX əsrin əvvəllərində başlamış, həmin dövrlərdə nəşr olunan bir sıra sahə qəzetlərində felyetonlar, məqalələr dərc etdirmişəm. İxtisasca mühəndis olmağıma, hətta uzun illər öz sahəmdə çalışıb Tiflis-İrəvan dəmir yolunun çəkilməsində iştirak etməyimə baxmayaraq, söz sənətinə, xalqımıza bu yolla xidmət göstərməyə bütün qəlbimlə bağlı olmuşam. İlk qəzetçilik fəaliyyətimə “Həblül-mətin” məcmuəsi ilə başlamışam, bir müddət sonra isə elə həmin qəzetin sahə üzrə müvəkkili təyin edilmişdim. Bu ülvi həvəslə də “Molla Nəsrəddin” jurnalında yazılar dərc etdirmiş, dövrün çətinliklərini, mürəkkəb hadisələri, sovet hökumətinin xalqımıza göstərdiyi biganəliyi bütün ziyalı yoldaşlarım, sirdaşlarım ilə qələmə almışıq.

– Ötən günlərdə sizin xatirələriniz barədə məlumat toplayarkən “Mozalan bəyin səyahətnaməsi” ilə bağlı bir çox faktlara rast gəldim. Deyəsən həmin əsərin yazılmasının da maraqlı tarixi var ha...

***Qurbanəli Şərifzadə:*** – “Mozalan bəyin səyahətnaməsi” Mirzə Cəlil yaradıcılığının əvəzsiz məhsulu, “Molla Nəsrəddin” jurnalında yer alan mövzuların zirvəsi sayılır. Düzdür, onun ərsəyə gəlməsinin də maraqlı tarixi var. Həmin xatirələrə bu gündən körpü salmaq, keçmişi xatırlamaq insana fərqli hisslər yaşadır, həm kədərləndirir, həm qürurlandırır. Xatırlayıram ki, həmin əsəri ərsəyə gətirəndə mənimlə bərabər bir otaqda, bir masa arxasında dostlarım Əbdürrəhim bəy, Salman Mümtaz, Mirzə Cəlil, Ömər Faiq və bir neçə mollanəsrəddinçi ziyalılar cəm olmuşdu. Hətta həmin hadisə ilə bağlı, səhv etmirəmsə, Əbdürrəhim bəy Haqverdiyev öz xatirələrində yazmışdı. Elə həmin söhbətimizdə Mirzə Cəlil mənə dedi ki, “Gəlin biz ”Mozalan”ı gəzdirək. Ancaq onun səyahətnaməsini öz aramızda bölüşdürək…” Mozalan bəyi İrəvan və Naxçıvan tərəflərində Qurbanəli Şərifzadə gəzdirsin”. Elə Mirzənin bu çıxışından sonra mən və digər ziyalı yoldaşlarımız Mozalan bəyi əlimizin çatdığı hər yerdə “gəzdirdik”. Məqsədimiz də insanları Molla Nəsrəddin babanın söz-söhbətindən xəbərdar etmək idi.

– Bəs ilk məqaləniz nə vaxt jurnalda işıq üzü gördü? Əgər gizli deyilsə, məqalənin mövzusunu da bizimlə bölüşməyinizi xahiş edirəm...

***Qurbanəli Şərifzadə:*** – İlk yazımı felyeton janrında, elə jurnal nəşrə başladığı ildə, yəni 1906-cı ildə qələmə almışdım. “Heç kəsdən qorxmuram” başlıqlı felyetonumda dövrün çirkinliklərindən danışmış, bunun müqabilində nə mənim, nə də digər qələm sahiblərimizin heç kəsdən qorxmadığını açıqca söyləmişdik. Sözügedən felyeton jurnalın nəşrə başladığı ilin 18-ci nömrəsində işıq üzü görüb.

***Əziz Şərif:*** – Söhbətinizə bir-iki cümlə də mən əlavə etmək istəyirəm. Mənim ilk müəllimim, ustadım olan atamın 1908-ci il 30 iyundan, jurnalın 26-cı nömrəsindən başlayaraq bütün il ərzində “Məşədi Mozalanbəy” imzası ilə çap edilmiş felyetonların əlyazmasını öz şəxsi arxivimdə qoruyub saxlamışam. Hətta Naxçıvanda yazıb-yaratmış bir neçə tədqiqatçı alimə də onları göstərmişəm. Bu gün həyatda olan alimlərdən, bəlkə də, bu söhbəti eşidənlər təsdiq edəcək. Xüsusən də Cəlil Məmmədquluzadə irsini, yaradıcılığını araşdıranlar daha yaxşı bilərlər.

– Bəli, sizinlə tamamilə razıyam. İcazə versəniz, sizə, sözünüzə istinadən bir hadisəni də xatırlatmaq istəyirəm. Ərsəyə gətirdiyiniz “Molla Nəsrəddin necə yarandı” kitabında görkəmli mirzəcəlilşünas alim, akademik İsa Həbibbəyliyə göndərdiyiniz bir əlyazmadan da bəhs etmisiniz. Mirzə Cəlilin dayısı Əli Babayev haqqında olan əlyazma dəftərçəni deyirəm. Hətta bu barədə İsa müəllimə məktub da yazmısınız. Xatırlayırsınız ?

***Əziz Şərif:*** – İsa Həbibbəyli o illərdə çox gənc idi. Elmə, tədqiqata göstərdiyi maraq, Cəlil Məmmədquluzadə yaradıcılığına sonsuz sevgisi gələcəkdə parlaq şəxsiyyət olacağından xəbər verirdi. Düz qeyd etdiniz ki, həmin illərdə ziyalıların bir çoxu ilə məktublaşmalarımız olub. Ancaq dediyiniz məktubu tam olaraq xatırlamıram. Xatırlatsanız əgər...

– Bəli, kitabınızın 13-cü səhifəsində, səhifənin ən aşağı hissəsində İsa müəllimin məktubuna cavab olaraq yazmısınız: “Əlişdanın (Əli Babayevin) məndə dəftərçəsi vardır. Onu sizə göstərməyə hazıram. Necə edək? Moskvaya yolunuz düşsə, məmnuniyyətlə o dəftəri Sizə göstərərəm”.

Ardı 3-cü səhifədə

***Əziz Şərif:*** – Bəli, xatırladım. Elə həmin məktubdan, təxminən, bir il sonra da İsa Həbibbəyli təşrif buyurub Moskvaya gəldi. Həmin illərdə mən Lomonosov adına Moskva Dövlət Universitetində müəllim işləyirdim. Səhv etmirəmsə, onunla ilk görüşümüz də bu münasibətdə oldu.

– Bir də bu yaxınlarda, görüşünüzə gəlməzdən öncə sizinlə görüşmüş mərhum jurnalist Səxavət Kəngərlinin qələm dostu, Naxçıvan Muxtar Respublikasının Əməkdar jurnalisti Muxtar Məmmədov məni şəxsi arxivində qoruduğu tarixi fotoşəkil və yazdığınız bir məktubla tanış etdi. Açığı öz əlyazmanızı gördükdə nə qədər qürurlandım, deyə bilmərəm...


Əзизим Сәхавәт!
Көндәрдијин шәкилләр кәлди чатды. Чох сағ ол. Əлин голун вар олсун. Мән һеч көзләмәздим ки, шәкилләри белә јахшы чәкәсән. Сән ки лап устајмышсан! Мәним үчүн бу шәкилләр гијмәтли бир јадикардыр.
Јенә дә сағ ол. Амма, гардашларына вә евин ханымлара чох чох салам
Һөрмәтлә
27-V-65

***Əziz Şərif:*** – Uzun illər mətbuat sahəsində xidmətlər göstərmiş, əvvəla, alim-tədqiqatçı, professor kimi bu cür dəyərli mənbələri qoruyub saxladığı üçün Muxtar Məmmədova və onun timsalında olan bütün davamçılarımıza təşəkkür edirəm... Ola bilsin ki, həmin fotoşəkil Naxçıvanda olduğum illərdə çəkilib, elə məktub da yazdığım yüzlərlə məktubdan biridir. Naxçıvana gəlib-getdiyim illərdə daim naxçıvanlı ədiblərin, ziyalıların, jurnalistlərin səmimi, mehriban və qayğıkeş münasibətilə qarşılaşmışam. Çox yaxşı bilirəm ki, bu gün Naxçıvanda Mirzə Cəlil Məmmədquluzadə irsinin qorunması, yaşadılması üçün ziyalılarımız tərəfindən çox böyük xidmətlər göstərilir. Əmin olsunlar ki, xalq yolunda edilən xidmət heç zaman bihudə getmir, həmin yaxşılıqlar insanın hər iki dünyada da əlindən tutur...

– Dəyərli ustadlarımız, iki əsrə yaxın fəaliyyətini davam etdirən Azərbaycan mətbuatının ildönümü ərəfəsindəyik. Bəlkə, bir-iki kəlmə də bundan danışaq...

***Əziz Şərif:*** – Azərbaycan mətbuatının yarandığı dövrə canlı şahidlik edən atam Qurbanəli Şərifzadənin bu barədə danışması, öz fikirlərini söyləməsi, düşünürəm ki, daha uyğun olar. Buyur, atacan, söz sənindir...(təbəssüm edir)

***Qurbanəli Şərifzadə:*** – Mətbuatımızın keçdiyi tarixi yol, həqiqətən də, qürur doğurur. Bu il Azərbaycan milli mətbuatının, ana dilində ilk qəzetin nəşrə başlamasının 148 ili tamam olur. 1875-ci ilin 22 iyulunda görkəmli maarifçi, təbiətşünas alim, publisist, mütəfəkkir Həsən bəy Zərdabinin əsasını qoyduğu "Əkinçi" qəzeti ilə xalqımızın milli ruhunun formalaşmasında yeni mərhələ oldu. Əsasən, maarifçilik missiyasını yerinə yetirən "Əkinçi" az müddətdə həm ziyalı təbəqə, həm də sadə insanlar arasında çox məşhurlaşdı. Milli oyanışın yeni mərhələsinin təmsilçisi kimi "Əkinçi" qəzetinin başlanğıcını qoyduğu yol neçə-neçə mətbu və ədəbi məktəbin formalaşma prosesinə təkan verdi, xalqın maariflənməsinə, milli-azadlıq hərəkatının güclənməsinə birbaşa təsir göstərdi. Tarixin müxtəlif ictimai-siyasi mərhələlərində formalaşmış Azərbaycan mətbuatı xalqa, cəmiyyətə, insana xidmət borcunu şərəflə yerinə yetirdi. Elə bu gün də ölkəmizdə həmin mətbuatdan güc almış yüzlərlə ədəbi nəşr fəaliyyət göstərir. Arzu edirəm ki, bütün ziyalılarımızın, jurnalistlərimizin qələmi daim həqiqətdən ilham alsın.

– Çox sağ olun, dəyərli ustadlarımız. Ömrünüzü mətbuatımızın inkişafına, həqiqətlərin gün üzünə çıxmasına, xalqımızın savad sahibi, elm əhli olmasına sərf etdiyiniz üçün sizə minnətdarlıq edirəm. Heç zaman qocalmayan, unudulmayan ruhunuza dərin hörmət və ehtiram arzulayıb sizinlə sağollaşıram. Allah sizə rəhmət etsin, ruhunuz şad olsun!

✍ **Məcid RƏŞADƏTOĞLU**

## Muxtar Məmmədoğlunun "O yaşayır, yaşayacaq ürəklərdə" kitabının təqdimat mərasimi keçirilib




*Azərbaycan Jurnalistlər Birliyinin üzvü, Naxçıvan Muxtar Respublikasının Əməkdar jurnalisti, "Şərq qapısı" qəzetinin məsul katibi Muxtar Məmmədoğlunun 22 iyul – Milli Mətbuat Günü münasibətilə çapdan çıxan, Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş "O yaşayır, yaşayacaq ürəklərdə" kitabının təqdimat mərasimi keçirilib.*




Kitabın redaktoru, "Şərq qapısı" qəzetinin baş redaktoru, filologiya üzrə fəlsəfə doktoru, Naxçıvan Muxtar Respublikasının Əməkdar jurnalisti Mehriban Sultan tədbirdə çıxış edərək vurğulayıb ki, Prezident cənab İlham Əliyevin 2022-ci il 29 sentyabr tarixli Sərəncamı ilə 2023-cü ilin "Heydər Əliyev İli" elan olunması "Şərq qapısı" qəzetinin də qarşısında mühüm vəzifələr qoyub. Ötən dövrdə qəzet əməkdaşları "2023-cü il Heydər Əliyev İli"dir rubrikası altında Ümummilli Liderin şərəfli, mənalı ömür yolunu, zəngin siyasi-dövlətçilik irsini özündə əks etdirən siyasi-publisistik məqalələr, analitik şərhlər, reportajlar, dəyirmi masalarla çıxış ediblər və bu proses indi də davam edir. Ümumilikdə, 6 ay ərzində qəzetdə bu mövzuda 66 mətbu material işıq üzü görüb.

"Şərq qapısı" qəzetində 20 ildən artıqdır, fəaliyyət göstərən Muxtar Məmmədoğlunun zəngin yaradıcılıq fəaliyyətinə nəzər salan Mehriban Sultan bildirib ki, müəllif sayca beşinci olan "O yaşayır, yaşayacaq ürəklərdə" kitabında Ümummilli Lider Heydər Əliyevin siyasi irsini hər birimiz üçün oxunmalı və öyrənməli olan elm adlandırır. Doğrudan da, görkəmli dövlət xadimi, Ulu Öndər Heydər Əliyevin həyat yolu, çoxşaxəli irsi daim zənginləşən, yenilənən tükənməz bir xəzinədir. Bu mənada, "Şərq qapısı"nın timsalında Muxtar müəllim bu xəzinəyə öz layiqli töhfəsini verib.

Qeyd olunub ki, kitab bir çox cəhəti ilə qiymətli mənbədir. Yeni nəşrdə elmi-kütləvi-publisistik salnamə kimi görkəmli dövlət xadiminin keçdiyi həyat yolunu, müstəsna fəaliyyətini öyrənmək istəyən hər kəs üçün faydalıdır.

Kitabın ön sözünün müəllifi, Yeni Azərbaycan Partiyası Naxçıvan Şəhər Təşkilatının sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı, tarix üzrə fəlsəfə doktoru, dosent Elman Cəfərli qeyd edib ki, muxtar respublika mətbuatına böyük töhfələr vermiş jurnalistlərimizdən olan Muxtar müəllim oxunaqlı, oxucu tələbi baxımından cəlbedici olan "O yaşayır, yaşayacaq ürəklərdə" kitabı Böyük Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunan dəyərli nəşrdir. Onun sanballı, oxunaqlı, ustalıqla işlədiyi məqalələr kitabı özünəməxsus edir və hər kəs bu kitabdan özü üçün nə isə əxz edə bilər.

Naxçıvan Mətbuat Şurasının sədri Rövşən Hüseynov bildirib ki, kitab Ulu Öndərimizin siyasi, dövlətçilik fəaliyyətinə işıq salan salnamədir. Onun bölmələrində yer alan "Heydər Əliyev mübarizliyi xalqımızı düşdüyü bəlalardan qurtardı", "Bugünkü nəsil bilməlidir ki, yaşadığımız firavan həyatı bizə Ümummilli Liderimiz bəxş edib", "Heydər Əliyev siyasətinin işığı Naxçıvanı nurlu sabahlara çıxarıb" kimi məqalələrdə müəllif Ulu Öndərin müxtəlif sahələrdə həyata keçirdiyi islahatların bugünkü bəhrələrini ortaya qoya bilib. Muxtar müəllimin Vətəninə, xalqına, eyni zamanda xalqımızın böyük oğluna olan sevgisi bu kitabdakı yazılarda aydın əksini tapıb.

Naxçıvan Dövlət Universitetinin Sosial məsələlər və ictimaiyyətlə əlaqələr üzrə prorektoru, tarix üzrə fəlsəfə doktoru Arzu Abdullayev yeni nəşri Ulu Öndər Heydər Əliyev irsinə və "Heydər Əliyev İli"nə ən layiqli töhfələrdən biri kimi qiymətləndirib, Muxtar Məmmədoğlunun yaradıcılığını gənclər üçün bir məktəb kimi dəyərləndirib.

Naxçıvan Muxtar Respublikasının Əməkdar jurnalisti Hüseyn Əsgərov çıxışında Muxtar Məmmədovu klassik publisistikanın dəyərli nümayəndələrindən hesab etdiyini deyib, kitabın adından da bəlli olduğu kimi, Ümummilli Lider Heydər Əliyevin xalqımızın qəlbində əbədi yaşayacağını bildirib.

"Şərq qapısı" qəzetinin gənc əməkdaşı, Naxçıvan Dövlət Universitetinin Jurnalistika ixtisası üzrə builki məzunu Məcid Rəşadətoğlu gənc jurnalistlərə daim yol göstərdiyi, stimul, dəstək verdiyi üçün kitabın müəllifinə öz minnətdarlığını bildirib. Çıxış edənlər müəllifi kitabın nəşri münasibətilə təbrik edib, ona yeni yaradıcılıq uğurları arzulayıblar.

Müəllif, Naxçıvan Muxtar Respublikasının Əməkdar jurnalisti Muxtar Məmmədoğlu kitabın ərsəyə gəlməsində, tədbirin təşkilində köməyini əsirgəməyən hər kəsə təşəkkür edib.

Qeyd edək ki, "Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyində nəfis tərtibatla çapdan çıxan kitab ön söz, giriş və dörd bölmədən ibarətdir. Kitabın "Esselər", "Dəyirmi masa, müsahibələr və söhbətlər", "Bu ünvanlar xalqımızın böyük oğlunun adını yaşadır", "Bu da bir ömürdü..." bölmələrində jurnalistin ürəyindən keçən və qələminin gücü ilə ərsəyə gələn səmimi fikirləri, düşüncələri ilə tanış ola, bu dəyərli nəşrdən faydalana bilərsiniz.

✍ **Güntac ŞAHMƏMMƏDLİ**

## "Şərq qapısı" qəzetinin əməkdaşı Yeni Azərbaycan Partiyasının "Heydər Əliyev İli" çərçivəsində jurnalistlər arasında keçirdiyi fərdi yazı müsabiqəsində II yerə layiq görülüb

Məlum olduğu kimi, 2023-cü il Prezident cənab İlham Əliyevin müvafiq Sərəncamı ilə ölkəmizdə "Heydər Əliyev İli" elan edilmişdir. Ulu Öndərin dünyaya göz açdığı və yeni, müstəqil Azərbaycanın təməlinin atıldığı Naxçıvan Muxtar Respublikasında da "Heydər Əliyev İli" münasibətilə bir çox tədbirlər keçirilir. Bu tədbirlər çərçivəsində bir çox mətbu orqanlarla yanaşı, "Şərq qapısı" qəzetində də Ulu Öndərin həyatı və siyasi fəaliyyəti, Naxçıvanın xilası və dirçəlişi sahəsində gördüyü işlər haqqında silsilə yazılar dərc edilir. Qəzetin əməkdaşı Ramiyyə Əkbərovanın "Şərq qapısı"nın 4 may 2023-cü il tarixli sayında dərc edilən "Naxçıvanın xilası və inkişafı Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır" sərlövhəli yazısı da bunlardan biridir. Yazı Yeni Azərbaycan Partiyasının "Heydər Əliyev İli" çərçivəsində jurnalistlər arasında "Heydər Əliyev və yeni Azərbaycan" mövzusunda keçirdiyi fərdi yazı müsabiqəsinə təqdim edilib və "Qurtuluşdan tərəqqiyə: müstəqillik dövründə Heydər Əliyev yeni və müasir dövlət quruculuğu" adlı ikinci nominasiya üzrə II yerin qalibi olub.

Qeyd edək ki, müsabiqəyə üç istiqamət üzrə yazılar təqdim edilib və şərtlərə uyğun olaraq üç nominasiyanın hər biri üzrə bir nəfər I, bir nəfər II, bir nəfər III yer üzrə qalib elan edilib.

**Xəbərlər şöbəsi**

## "Vətən oğulsuz olmasın" kitabı ictimaiyyətə təqdim edilib




Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyi və "Mirvarid Dilbazi Poeziya Məclisi" İctimai Birliyinin təşkilatçılığı ilə keçirilən təqdimat mərasiminin iştirakçıları əvvəlcə Ulu Öndər Heydər Əliyevin Naxçıvan şəhərinin mərkəzində ucalan abidəsini ziyarət edib, ehtiramlarını bildiriblər. Heydər Əliyev Muzeyi ilə tanış olan qonaqlar sonra Hüseyn Cavidin məqbərəsində olub, dahi liderin Azərbaycan ədəbiyyatına, eləcə də Hüseyn Cavidin şəxsiyyətinə və yaradıcılığına olan diqqətindən danışıblar.

Məmməd Səid Ordubadi adına Naxçıvan Muxtar Respublika Kitabxanasında keçirilən təqdimat mərasimində Ulu Öndərin, şəhidlərimizin və Mirvarid Dilbazinin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

"Vətən oğulsuz olmasın" kitabının Ulu Öndər Heydər Əliyevin 100 illiyi ilə əlaqədar nəşr olunduğunu vurğulayan "Mirvarid Dilbazi Poeziya Məclisi" İctimai Birliyinin sədri Güllü Alıyeva kitabın dahi liderin doğulduğu Naxçıvan torpağında təqdimat mərasiminin keçirilməsindən məmnunluğunu dilə gətirib. Bildirib ki, kitabda Ulu Öndərin Xalq şairi Mirvarid Dilbazi ilə görüşü zamanı onların çıxışları, ədibin xalqın müdrik oğluna həsr etdiyi şeirlər toplanıb.



Naxçıvan Yazıçılar Birliyinin sədri Asim Əliyev vurğulayıb ki, Ümummilli Lider hər zaman Vətənə, xalqa məhəbbət kimi mənəvi keyfiyyətlərin aşılanmasında ədəbiyyatın rolunu önə çəkir, Vətənə sevgi ruhunda yazmağın sənətkar üçün xoşbəxtlik olmasını vurğulayırdı. Ədəbiyyatımızın böyük hamisinə şairlər tərəfindən minlərlə şeirlər, poemalar həsr olunub. Mirvarid Dilbazi də Ulu Öndərə həsr olunmuş qiymətli ədəbi nümunələr yaradan ilk şairlərimizdəndir.

Sonra Vətən müharibəsi şəhidləri – Xansu Qurbanovun, İbrahim Əlizadənin, Milli Qəhrəman Yusif Mirzəyevin ailə üzvləri, Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin əməkdaşı Aygün Heydərli, Naxçıvan Şəhər İcra Hakimiyyəti başçısının müavini Təhminə Mustafayeva,Yazıçılar Birliyinin üzvü Aləmzar Sadıqqızı və digərləri çıxış edərək kitabla bağlı fikirlərini bölüşüblər, şairlər şeirlər səsləndiriblər. Qeyd olunub ki, Azərbaycanın ilk qadın Xalq şairi olan Mirvarid Dilbazinin şeirləri gənc nəslin milli vətənpərvərlik duyğularının möhkəmlənməsində müstəsna rol oynayıb.

***Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin mətbuat xidməti***

## "Şəhidlər zirvəsi" sənədli filminin nümayişi olub



Yaxın günlərdə Bakı şəhəri, Nizami Kino Mərkəzində "Şəhidlər zirvəsi" sənədli filminin təqdimat mərasimi keçirilib. İdeya müəllifi və rəhbəri Vaqif Şahsuvarov, rejissoru və ssenari müəllifi Nazim İmanov və Ələkbər Qasımov olan "Şəhidlər zirvəsi" adlı filmin təqdimatında şəhid ailələri, qazilər, Vətən müharibəsi iştirakçıları, media nümayəndələri və sənət adamları iştirak ediblər.

Tədbirdə əvvəlcə şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla anılıb, daha sonra Dövlət Himni səsləndirilib, "Şəhidlər zirvəsi" sənədli filmi nümayiş olunub.

Tədbiri giriş sözü ilə layihənin ideya rəhbəri Vaqif Şahsuvarov açıb. Qeyd olunub ki, əziz şəhidlərimizin xatirəsinə ucaldılmış "Şəhidlər zirvəsi" Naxçıvan Muxtar Respublikasının Culfa rayonunun tarixi abidəsi olan Əlincə qalasının 1800 metr yüksəkliyində yerləşir. Zirvə Birinci Qarabağ müharibəsində, 44 günlük Vətən müharibəsində şəhid olmuş qəhrəmanlarımızın əziz xatirəsinə həsr olunub.

Diqqətə çatdırılıb ki, filmin çəkilməsində əsas məqsəd torpaqlarımızın azadlığı uğrunda canından keçmiş bütün Azərbaycan şəhidlərinin əziz xatirəsini əbədiləşdirmək, onların qısa, lakin mənalı ömrünü bütün gənc nəslə aşılamaqdır.

Tədbirdə çıxış edənlər bildiriblər ki, film layihənin ideya müəllifi və rəhbəri Vaqif Şahsuvarovun zəhməti ilə 3-4 ay müddətində ərsəyə gəlib. Filmdə yalnız şəhidlərin amalı, qayəsi yox, həm də bütöv bir Azərbaycan xalqının arzusu, niyyəti əks olunub. Bu gün qürur hissi ilə deyirik ki, bütün şəhidlərimizin arzuları həyata keçib, torpaqlarımız düşmən işğalından azad olunub.

Filmin sonunda təltiflər olub və layihənin rəhbəri Vaqif Şahsuvarova Azərbaycan Vətən Müharibəsi Veteranları İctimai Birliyinin üzvlük vəsiqəsi, Böyük Zəfər medalı ilə təqdim edilib.

✍ **Sürəyya QƏDİMƏLİYEVA**

*Müasir dövrdə media-vətəndaş münasibətləri kifayət qədər mürəkkəb və çoxşaxəlidir. Kütləvi informasiya vasitələri cəmiyyətdə informasiya zənginliyi yaratmaqla, demokratik proseslərə və insan haqlarının bərqərar olmasına təkan verməklə yanaşı, bəzən insanların özəl maraqlarına müdaxilə edir, onların cəmiyyətdəki mövqeyinə ziyan vurur. Bütün ölkələrdə dövlət öz vətəndaşlarını kütləvi informasiya vasitələrinin haqsız hücumlarından qorumağa çalışır, yəni onların şərəf və ləyaqətinin alçaldılmasına, işgüzar nüfuzuna xələl gətirilməsinə imkan vermir. Şəxsin şərəf və ləyaqətinə, işgüzar nüfuzuna xələl gətirən qeyri-dəqiq informasiyaların yayılması, şərləmə, böhtan atma diffamasiya sayılır.*

## Beynəlxalq media sistemində mövcud olan diffamasiya anlayışının Azərbaycan mediası və qanunvericiliyində də tətbiq olunması məqsədəuyğundur



Diffamasiya – beynəlxalq hüquqi termindir. “Defamatio” sözündən yaranıb və “ləkələmək” deməkdir. Bu termin latın mənşəlidir. Diffamasiya anlayışının Qədim Romada yarandığına dair fikirlər olsa da, bu terminə Roma hüququ dərsliklərində rast gəlinmir. “Diffamasiya” anlayışı bir çox ölkələrin qanunvericiliyində var.

Beynəlxalq standartlara görə hər hansı məlumatın diffamasiya kimi qiymətləndirilməsi üçün o: yalan olmalı; mülahizə deyil, faktiki mahiyyət daşımalı; real zərər vurmalı və aid olduğu şəxsin nüfuzuna qarşı yönəlməlidir, yəni kütləvi nümayiş etdirilməli, yayılmalıdır.

KİV-də diffamasiya hüquq pozuntusudur və mediaya qarşı şikayətlərin, məhkəmə iddialarının əksəriyyəti məhz belə hallarla əlaqədardır. Bununla belə hökumətlərin diffamasiya haqqında qanunlar əsasında tənqidçi jurnalistləri ağır cəzalandırmaq cəhdlərinin qarşısını almaq üçün beynəlxalq təşkilatlar (BMT, Avropa İttifaqı, Avropa Şurası və sair) bütün dövlətləri onu dekriminallaşdırmağa çağırır. Beynəlxalq təşkilatlar tərəfindən diffamasiya qanunvericiliyinə dair bir sıra standartlar işlənib hazırlanmışdır. Həmin normativ-hüquqi aktlara uyğun olaraq söz və mətbuat azadlığına heç bir xələl gətirmədən şərəf və ləyaqətin yetərincə qorunmasına nail olmaq olur. Artıq bir çox ölkələrin qanunvericiliyində diffamasiya cinayət əməli deyil, mülki və ya inzibati pozuntu hesab edilir.

` Diffamasiya ilə bağlı mühüm nəzəri və praktiki araşdırmalar aparan media üzrə beynəlxalq qurum – “19-cu Maddə” (Article 19) təşkilatının mövqeyinə görə ən yaxşı diffamasiya qanunları o qanunlar hesab edilir ki, onlar fərdin reputasiyası (şərəf, ləyaqət və nüfuz) ilə fikri ifadə azadlığı arasında müvafiq balansyaratma funksiyasının yerinə yetirilməsi olsun. Yəni bu qanunların əsas məqsədi insanları onların reputasiyasına zərər vuran yalan fikirlərdən müdafiə etməkdir.

Yayılma formasından asılı olaraq bəzi ölkələrin qanunvericiliklərində iki cür: şifahi (şaiyə, şər, dedi-qodu, qeybət) və yazılı (böhtan və təhqir) diffamasiya fərqləndirilir. Beynəlxalq Jurnalistlər Federasiyasının mənbələrindəki araşdırmalarda da diffamasiya iki növdə: böhtan (libel), yəni yazılı və digər formada ifadə olunan bəyanat, şər (slander) isə şifahi və ya jest formasında ifadə olunan bəyanat kimi qeyd olunmuşdur. Qeyd edək ki, belə bölgü şərti xarakter daşıyır və işin konkret halından asılı olaraq əməl, məsələn, böhtan həm yazılı, həm də şifahi formada özünü büruzə verə bilər.

BMT, Avropa Şurası, ATƏT və başqa beynəlxalq təşkilatlar Cinayət Məcəlləsində diffamasiyaya görə məsuliyyətə cəlb olunma maddələrinin mövcudluğunun təhlükəli olduğunu dəfələrlə vurğulamış və belə qanunların ləğvinə çağırmışlar. ATƏT-in Parlament Assambleyası rəsmi şəxslərin, dövlətin və hakimiyyət orqanlarının diffamasiyasına yol verən jurnalistlərin cinayət məsuliyyətinə cəlb edilməsini yolverilməz hesab edir. Bəzi ölkələrdə məhkəmə orqanlarının yüksək cərimə məbləği tətbiq etməsi informasiyanın sərbəst yayımına mənfi təsir göstərir. Əslində, başqa və “az üzücü”, amma kifayət qədər təsirli üsullardan, o cümlədən məhkəmə qərarı əsasında təkzib verilməsindən, üzrxahlıq edilməsindən istifadə edilə bilər.

Diffamasiya haqqında ilk qanun 17-ci əsrdə İngiltərədə meydana gəlmişdir. Sonra isə, xüsusilə böhtanla bağlı ABŞ-da 1735-ci ildə Jon Piter Zengerin məhkəmə işində “New York Weekly” jurnalında dərc olunmuş məqalədə Nyu-Yorkun qubernatoru ilə bağlı yazılmış faktlar həqiqəti əks etdirdiyindən Zenger diffamasiyaya görə təqsirli bilinməmişdir.

ABŞ-da diffamasiya haqqında qanunun kökləri ingilis hüququna dayanır. 1964-cü ilə qədər ABŞ və Böyük Britaniyada diffamasiya qanunu çox oxşar idi. ABŞ qanunvericiliyinə görə dövlət məmurları və ictimai xadimlər ünvanlarına deyilən tənqidi qeydlərə və iradlara dözümlə yanaşmalıdırlar. Hətta mülki iddialar üzrə sadə vətəndaşlar vəzifəli şəxslərlə müqayisədə bir sıra üstünlüklərə malikdir. Böhtanla bağlı iş üzrə, əgər iş ictimai məsələlərə aiddirsə, sübutetmə vəzifəsi iddiaçının üzərinə düşür. ABŞ Ali Məhkəməsi qərar çıxarmışdır ki, böhtan yalnız iki halda cinayət əməli hesab oluna bilər: həmin fikir cinayət məzmunu daşıdığı halda və yüksək ehtimalla, asayişin pozulacağı təhlükəsi yarandığı halda.

Almaniyada “diffamasiya” termini birbaşa qanunda yoxdur. Doktrinada rast gəlmək olar ki, Almaniyada diffamasiya həm də həqiqətə uyğun böhtan xarakterli məlumatların yayılması, hətta təhqir də adlanır. Almaniyada təhqirin tərkibi ayrıdır. Burada şəxs haqqında onun reputasiyasını ləkələyən, bilə-bilə yalan məlumatların yayılmasına görə məsuliyyət nəzərdə tutulur. Eyni zamanda Cinayət Məcəlləsində fərqli bir tərkib var – 186-cı maddə, zərərli dedi-qodu deməkdir. Bu tərkib şəxsin nüfuzuna xələl gətirən faktın yayılması halında, bu faktın doğruluğu sübuta yetirilmədikdə cəza nəzərdə tutur. Aydındır ki, bu iki cinayət arasındakı fərq bir şəxs haqqında yalan faktlar yaymaq üçün bəd niyyətin olub-olmamasındadır. Almaniya qanunvericiliyində diffamasiya daha çox tanınmış doktrinal termindir.

Fransa qanunvericiliyində diffamasiya fiziki və ya hüquqi şəxsin şərəf və ya reputasiyasını ləkələyən hər hansı bəyanat və ya fakt ifadəsidir. Diffamasiya Cinayət Məcəlləsində də var. Faktların şəxsin şəxsi həyatına aid olduğu hallar istisna olmaqla yayılan məlumatın doğruluğu təqsirləndirilən şəxs tərəfindən cəzadan yayınmaq üçün sübuta yetirilə bilər. Diffamasiya doktrinal mənbələrə görə, həm cinayət, həm də mülki hüquq pozuntusudur. Beləliklə, Fransa qanunvericiliyinin həqiqətə uyğun böhtana görə məsuliyyət nəzərdə tutduğunu iddia etmək olar, lakin hazırda (Qanundakı dəyişikliklərə görə) belə hallar yalnız şəxsin şəxsi həyatına müdaxilə ilə bağlı cinayətlər və ya hüquq pozuntuları ilə məhdudlaşır. Bu isə bir çox hüquq sistemlərində diffamasiya ilə bağlı olmayan ayrıca cinayət kimi tanınır.

Azərbaycanda isə “Diffamasiya haqqında” qanun layihələri bir təşəbbüs kimi 2005, 2011 və 2013-cü illərdə hazırlanıb, onların ətrafında geniş ictimai müzakirələr təşkil olunub. Qanun layihəsinin müzakirəsi 15 ildən artıq davam etsə də, bu günə qədər yekun nəticə əldə edilməyib, qanun layihəsi qəbul olunmayıb. Buna əsas səbəb Azərbaycan qanunvericiliyində bəzi maddələrin əks olunmasıdır. Belə ki, beynəlxalq təşkilatların, o cümlədən Avropa Şurasının media mütəxəssislərinin qənaətinə görə, təhqirə və böhtana görə cinayət məsuliyyətini nəzərdə tutan 147-ci (böhtan) və 148-ci (təhqir) maddələr Azərbaycan Respublikasının Cinayət Məcəlləsindən çıxarılmalıdır. Ancaq Azərbaycan tərəfi bu təkliflərlə razılaşmır. Qeyd olunur ki, hər kəsin hüquqları konstitusion şəkildə qorunur və Cinayət Məcəlləsindəki həmin maddələrin çıxarılmasına da ehtiyac yoxdur. Çünki jurnalistləri indiki halda ayrıca kateqoriya kimi götürüb təhqirə və böhtana görə cinayət məsuliyyətini aradan qaldırmaq bir sıra sui-istifadə hallarına yol aça, digər kateqoriya insanların hüquqlarının pozulmasına gətirib çıxara bilər. Misal üçün, kimlərsə peşəsindən sui-istifadə edərək insanları təhqir edib, hansısa cərimə ilə canlarını qurtara biləcəklərini düşünə bilərlər.

Avropalı mütəxəssislər isə belə bir fikir irəli sürürlər ki, “Diffamasiya haqqında” qanun qəbul olunmalı, jurnalist yazdığına görə məsuliyyət daşımalı, lakin həbs olunmalı deyil. Bundan başqa, Avropa Şurası yalnız diffamasiyaya görə cinayət cəzasının ləğvinin tərəfdarı deyil, həm də mülki qanunvericilik çərçivəsində məqbul cəzaların müəyyən edilməsinə tərəfdardır. Məhz bu və digər arqumentlərin ortaya çıxması uzun zamandır, Azərbaycanda “Diffamasiya haqqında” Qanunun qəbulunu ləngidir.

Bir sıra mütəxəssislər isə diffamasiya qanunlarının istisna hallarda tətbiq edilməli olduğunu söyləyirlər. Onların fikrincə, “Yüksək vəzifəli şəxslər tənqidə daha dözümlü olmalıdırlar. Açıq siyasi məsələlərin müzakirəsinə heç bir məhdudiyyət qoyulmamalıdır. Jurnalistlər və media isə insanların hüquq və reputasiyalarına münasibətdə hədləri keçməməli, jurnalistikanın etik qaydalarına riayət etməlidirlər. Hər bir media və KİV sahəsi öz-özünü senzuradan keçirməli və xəbəri düzgün işıqlandıraraq diffamasiya hallarına şərait yaratmamalıdır.

Dünyanın heç bir yerində internet qanunla məhdudlaşdırılmır. Yəni internet haqqında xüsusi qanun yoxdur. Tənzimləmə var, məsələn, etik tənzimləmə mümkündür. Hər bir internet istifadəçisinin etik öhdəlikləri olmalıdır. Yəni, böhtan atmaq olmaz, təhqir olmaz, dövlət hakimiyyətini zorla yıxmağa çağırış olmaz və sair. Qanunla qadağan olunan bir çox şeylər var ki, onlara əməl edilməlidir. Sosial şəbəkələrdə hər an, hər zaman tənqid var. Ola bilər ki, dəqiqləşdirilməmiş məlumatlar da var. Peşəkar media ondan ötrüdür ki, o məlumatları cəmiyyətə faydalı şəkildə çatdıra bilsin.

Azərbaycanda diffamasiyanın dekriminallaşdırılması ilə bağlı əsas məsələlərdən biri media peşəkarlığının, media savadlılığının zəif olmasıdır. Biz cəmiyyəti savadlandırmalıyıq. Media savadlılığı, media təhsili olmalıdır ki, insanlar saxta xəbərlə gerçək xəbəri bir-birindən ayırsın.

*Ümumiyyətlə, diffamasiya problemi xarici ölkələrdə də kifayət qədər qarışıq problemdir. Amma bu getdikcə sistemləşir, nizama düşür. Dünyanın bir sıra qabaqcıl ölkələrində mövcud prosedur, uğurla tətbiq olunur və müsbət təsirini göstərir. Cəmiyyət senzurasız mətbuata uyğunlaşdığı kimi diffamasiyanın dekriminallaşdırılmasına da adaptasiya olunur.*

**Şəhla ŞİRƏLİYEVA**
***Naxçıvan Dövlət Universitetinin Jurnalistika və xarici ölkələr ədəbiyyatı kafedrasının müdiri, dosent***

## Cari ilin birinci yarısında 91 şəhid ailəsinə və 43 müharibə əlilinə yardım göstərilib

Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiə Nazirliyi tərəfindən cari ilin birinci yarısında 91 şəhid ailəsinə və 43 müharibə əlilinə yardım göstərilib. Nazirlikdən verilən məlumata görə, ilin ilk 6 ayında bu ailələrə, ümumilikdə, “Dəstək” Fondu tərəfindən 341550 manat yardım verilib. Bununla yanaşı, Naxçıvan Muxtar Respublikasının əmək və əhalinin sosial müdafiəsi naziri Ceyhun Cəlilov tərəfindən cari ilin birinci yarısında 142 şəhid ailəsi və 155 müharibə əlili ilə görüş keçirilib. Həmçinin 35 şəhid ailəsi ünvanlarında ziyarət edilib.

**Xəbərlər şöbəsi**

## “Naxçıvan” Universiteti Özbəkistan universitetləri ilə əməkdaşlığı genişləndirir



“Naxçıvan” Universiteti və Özbəkistanın Jurnalistika və Kütləvi Kommunikasiya Vasitələri Universiteti arasında qarşılıqlı dəstək və əməkdaşlıq əlaqələrinin perspektivləri müzakirə olunub. Görüşdə universitetin Beynəlxalq əlaqələr və strateji inkişaf üzrə prorektoru Rza Məmmədov, Beynəlxalq əlaqələr şöbəsinin müdiri Ruqiyyə Kərimova, Elm və innovasiyalar şöbəsinin müdiri Zamin Babazadə, universitetin müvafiq fakültələr üzrə dekanları və Özbəkistanın Jurnalistika və Kütləvi Kommunikasiya Universitetinin Tədqiqat və innovasiyalar üzrə prorektoru Nozima Fakhriddinovna və professor Nazira Taşpo'latova iştirak ediblər.

Hər iki universitet arasında əlaqələrin qurulması və inkişaf etdirilməsi məqsədilə keçirilən görüşdə, media sahəsində əlaqələrin daha da genişləndirilməsi, birgə layihələrin icrası, ikili diplom proqramlarının reallaşdırılması, beynəlxalq təhsil proqramlarında birgə fəaliyyəti, müəllim- tələbə və təcrübə mübadiləsinin aparılması, qarşılıqlı səfərlərin təşkili, birgə təlimlərin keçirilməsi və digər məsələlər müzakirə olunub.

“Naxçıvan” Universitetinin beynəlxalq əlaqələrində türkdilli ölkələrin ali təhsil müəssisələri ilə münasibətlərin qurulmasına xüsusi önəm verildiyini vurğulayan universitetin Beynəlxalq əlaqələr və strateji inkişaf üzrə prorektoru Rza Məmmədov bildirib ki, türkdilli ölkələr arasında münasibətlərin daha da inkişafında, xalqların yaxınlaşmasında elm, təhsil müəssisələri xüsusi rola malikdir. Rza Məmmədov Azərbaycan və Özbəkistan arasında münasibətlərin yüksələn xətlə inkişaf etdiyini bildirib və qeyd edib ki, eyni zamanda Şuşada Özbəkistanın investisiyalar, sənaye və ticarət naziri Ləziz Kudratovla görüşdə iqtisadi tərəfdaşlığın müxtəlif istiqamətlər üzrə gücləndirilməsi barədə birgə hökumətlərarası komissiyanın 12-ci iclası çərçivəsində bir sıra sənədlər də imzalanıb. Məhz bu baxımdan iki ali təhsil müəssisəsi arasında qarşılıqlı dəstək və əməkdaşlığın gücləndirilməsi ilə bağlı razılıq əldə olunması da labüddür.

Özbəkistanın Jurnalistika və Kütləvi Kommunikasiya Universitetinin Tədqiqat və innovasiyalar üzrə prorektoru Nozima Fakhriddinovna və professor Nazira Taşpo'latova maraqlı fikir mübadiləsinə görə görüşün iştirakçılarına təşəkkür ediblər.

***“Naxçıvan” Universitetinin mətbuat xidməti***

## Təlim-treninq təşkil edilib

Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin Penitensiar Xidmətinin və Səhiyyə Nazirliyinin birgə təşkilatçılığı ilə ekstremal vəziyyətlərdə təcili və təxirəsalınmaz tibbi yardımın təşkilinə dair təlim-treninq keçirilib. Xidmətin cəzaçəkmə müəssisələrində və Mühafizə Taburunda xidmət aparan əməkdaşlar üçün keçirilən təlim-treninq həkimaqədər ilkin tibbi yardım qaydalarının təşkilinə həsr olunub.



Xidmətin Təşkilat-nəzarət şöbəsinin rəisi, ədliyyə polkovnik-leytenantı Əli Rəhimov tədbirin məqsəd və prinsipləri barədə məlumat verib.

Səhiyyə Nazirliyi tərəfindən təhkim olunmuş həkimlər bildiriblər ki, hadisə yerində bir sıra sadə tədbirləri yubanmadan həyata keçirməklə ağır fəsadların və xoşagəlməz nəticələrin qarşısını almaq mümkündür.

Sonra həkimlər əməkdaşlara təxirəsalınmaz ilkin tibbi yardımın göstərilməsi qaydalarını əyani şəkildə izah edib, suallara ətraflı aydınlıq gətiriblər.

***Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin mətbuat xidməti***

### İtmişdir

Babək rayonunun Güznüt kənd sakini Mustafayev Aslan Surxay oğlunun adına olan JN-541A inventar nömrəli, 10310005 kodlu “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

***

Əliyev Şahmar Şəhriyar oğlunun adına olan AD-0044664 nömrəli hərbi vəsiqə itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: info@serqqapisi.gov.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Nail Əsgərov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 435